

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 31 (23.918)

16 fevral 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sosial rifahın yüksəldilməsinə xidmət edən siyasət Naxçıvanda əhalinin məskunlaşmasında mühüm rol oynayır

*Naxçıvan Muxtar Respublikası bu gün ölkəmizin sürətlə inkişaf edən diyarına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin yoluna sədaqətin və onun müəyyənləşdirdiyi inkişaf strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə, o cümlədən onun ayrılmaz hissəsi olan muxtar respublikada qazanılan uğurların miqyası və əhatə dairəsi ilbəil genişlənir, tarazlı və dayanıqlı inkişaf təmin edilir, məskunlaşma artır. Ölkə başçısının dediyi kimi:* ***"Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir... Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb".***

Ötən dövrdə iri sənaye və tikinti müəssisələrinin yaradılması, kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, turizmin kompleks inkişafı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi ümumi daxili məhsul istehsalının dinamik artımını təmin etmişdir. Statistik göstəricilərə nəzər salsaq görərik ki, 2021-ci ildə muxtar respublikada inkişafın əsas göstəricisi kimi istehsal olunan məhsulların və göstərilən xidmətlərin ümumi dəyəri 3 milyard, onun bir nəfərə düşən həcmi isə 6 min 500 manatı ötmüşdür. Müstəqillik illərində ümumi daxili məhsul istehsalının 69, bir nəfərə düşən istehsalın həcminin isə 49 dəfə artması qəbul olunmuş Dövlət proqramlarının və sosial-iqtisadi sahənin əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlərin uğurlu icrasının göstəricisidir.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmışdır. Ötən dövrdə rəqabətqabiliyyətli müasir sənaye müəssisələri istifadəyə verilmiş, mövcud müəssisələr yenidən qurulmuş, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində yeni istehsal gücləri yaradılmışdır. Əldə olunmuş uğurların nəticəsidir ki, müstəqilliyin ilk illərində muxtar respublikada 2020 işçinin çalışdığı 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, hazırda 17 mindən çox işçinin çalışdığı 440-dan çox sənaye müəssisəsi muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verir.

Muxtar respublika iqtisadiyyatında sənayedən sonra mühüm istehsal sahələrindən biri olan kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılmışdır. Əhalinin əsas hissəsinin kənd təsərrüfatı sahəsi ilə məşğul olması, digər amillərlə yanaşı, dayanıqlı məskunlaşmanın təmin edilməsi bu sahənin inkişafını şərtləndirmişdir. Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin inkişaf etdirilməsi üçün, ilk növbədə, torpaq islahatı aparılmış, torpaqlar həqiqi sahiblərinə – zəhmət adamlarına qaytarılmışdır. Əsası 1992-ci ildə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuş torpaq islahatı 2000-ci ildə muxtar respublikada başa çatdırılmış, 72 min 758 ailəyə 56 min 372 hektar torpaq sahəsi verilmişdir. Sonrakı illərdə ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramlarının uğurlu icrası digər sahələrlə yanaşı, kənd təsərrüfatının da kompleks inkişafını təmin etmişdir.

Dövlət proqramlarının icrası istiqamətində ötən dövrdə mütərəqqi üsullardan istifadə etməklə yeni suvarma sistemləri qurulmuş, su resurslarından səmərəli istifadə olunmaqla yararsız torpaq sahələri əkinəyararlı hala salınaraq əkin dövriyyəsinə qatılmış və nəticədə, kənd təsərrüfatına yararlı torpaqların sahəsi artaraq 177 min hektardan artıq olmuşdur. Bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmiş, aqrar sığorta sisteminin tətbiq olunması onların fəaliyyətini daha da stimullaşdırmışdır. Əkinçilərə və fermerlərə subsidiyalar, güzəştli şərtlərlə kreditlər, gübrələr, lizinq yolu ilə kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, istehsal etdikləri məhsulların satışı üçün şəraitin yaradılması insanların torpağa bağlılığını daha da artırmışdır. Bu gün muxtar respublikada aqrar sahədə məhsulun 100 faizə yaxınının özəl mülkiyyətə əsaslanan təsərrüfatlarda istehsal olunması yaradılan şəraitin nəticəsidir. Həyata keçirilən tədbirlər heyvandarlığın inkişafını da sürətləndirmiş, məhsuldarlıq ilbəil artmış, ərzaq təhlükəsizliyi təmin edilmişdir. Nəticədə, 2021-ci ildə kənd təsərrüfatının ümumi məhsulu müstəqilliyin ilk illəri ilə müqayisədə 15, o cümlədən bitkiçilik məhsulları istehsalı 17, heyvandarlıq məhsulları istehsalı isə 12 dəfə çoxalmışdır.

Məskunlaşmanı dayanıqlı edən amillərdən biri də sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən olan əhalinin məşğulluğunun təmin edilməsi məsələsidir. Muxtar respublikanın istehsal potensialının gücləndirilməsində və iqtisadiyyatın çoxsahəli inkişafında mühüm rol oynayan sahibkarlıq fəaliyyətinin daim dəstəklənməsi bu siyasətin uğurla həyata keçirilməsində mühüm rol oynamışdır. Hazırda muxtar respublikada 38 mindən artıq hüquqi və fiziki şəxsin sahibkarlıqla məşğul olması, o cümlədən müstəqillik illərində özəl sektor üzrə 70 minə yaxın yeni iş yerinin açılması bunun bariz nümunəsidir. Bu dövrdə əhalinin məşğulluğunun artırılması üzrə qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası səmərəli məşğulluğun təmin edilməsinə müsbət təsir göstərmişdir.

Əhalinin 65 faizinin kənd yerlərində məskunlaşdığı nəzərə alınaraq ailə təsərrüfatlarının yaradılması və inkişafı istiqamətində də kompleks tədbirlər həyata keçirilmişdir. Onu da qeyd edək ki, ailə təsərrüfatları modelinin formalaşdırılması yeni istehsal müəssisəsi yaratmadan və əmək ehtiyatlarından daha səmərəli istifadə yolu ilə özünüməşğulluğu təmin edir, o cümlədən kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" tədbirlər planlarının təsdiq olunması, 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi belə təsərrüfatların fəaliyyəti üçün daha geniş imkanlar açmışdır. Ailə təsərrüfatlarına ayrılan güzəştli kreditlər və istehsal etdikləri məhsulların satışına dövlət dəstəyinin göstərilməsi belə təsərrüfatların inkişafını təmin etmişdir. Hazırda muxtar respublikada mindən artıq iri ailə təsərrüfatı fəaliyyət göstərir. Belə təsərrüfatların inkişaf etdirilməsi, xüsusən kənd yerlərində məskunlaşan əhalinin gəlirlərini artırmış, daxili bazarın daha keyfiyyətli və ekoloji cəhətdən təmiz məhsullarla təmin edilməsinə şərait yaratmışdır.

İqtisadiyyatın vacib sahələrindən biri olan turizmin inkişafı da diqqətdə saxlanılmışdır. Yaşayış məntəqələrində müasir infrastrukturun yaradılması, tarixi abidələrin bərpası, ticarət və xidmət şəbəkələrinin genişləndirilməsi, müasir mehmanxanaların mövcudluğu turizmin inkişafını şərtləndirmişdir. Ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənd olan Ağbulaqda görülən işlər burada turizmin bir çox növünün inkişafına təkan verməklə yanaşı, muxtar respublikanın cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaratmışdır. Turizmin kənd, idman, qış, ekoturizm, dağ və sağlamlıq kimi çoxsaylı növlərinin inkişafı gələcəkdə kənd yerlərində məşğulluq imkanlarının və əhali gəlirlərinin daha da artmasına təkan verəcək, məskunlaşmanı dayanıqlı edəcəkdir.

İqtisadiyyatın davamlı inkişafı əhali gəlirlərinin həcmini də artırmışdır. Muxtar respublikada orta hesabla hər nəfərə düşən əhali gəlirlərinin həcmi ötən dövrlə müqayisədə 44 dəfədən çox artaraq 2021-ci ildə 4185 manata yaxın olmuşdur.

### *İqtisadiyyatın inkişaf etdirilməsi vətəndaşların sosial rifahını artırıb*

Əhalinin dayanıqlı məskunlaşmasını və insanların layiqli yaşayışını təmin etmək üçün yaşayış məntəqələrinin cəmiyyət üçün sağlam, müasir və abad yaşayış mühitinə çevrilməsi şərtdir. Bunun üçün yerlərdə müasir infrastruktur qurulmalı, insanlar üçün rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Bu gün muxtar respublikada iqtisadi sahədə qazanılmış uğurlar sosialyönümlü layihələrin həyata keçirilməsinə geniş imkanlar yaratmış, insanların layiqli yaşayışı təmin edilmişdir. Ötən dövrdə Naxçıvan şəhəri və rayon mərkəzləri ilə yanaşı, qəsəbə və kəndlər də tarazlı inkişaf etdirilmiş, sakinlərin rifahının yüksəlməsinə xidmət edən kompleks quruculuq işləri aparılmış, ən ucqar kəndlərdə müasir həyat tərzi yaradılmışdır. Ötən dövrdə muxtar respublikada 52 min 364 şagird yerlik 174 ümumtəhsil məktəbi, 250-dən çox səhiyyə obyekti, dövlət qurumlarının bir ünvanda fəaliyyətini təmin edən, müasir idarəetmə modeli olan 5 qəsəbə və 147 kənd mərkəzi, əhalinin işlə təmin olunması və rahatlığına hesablanmış xidmət mərkəzlərinin tikilərək istifadəyə verilməsi insan amilinə verilən dəyərin ifadəsidir. Muxtar respublikanın hüsnünə yeni çalarlar qatan möhtəşəm sosial obyektlərin istifadəyə verilməsi kəndlə şəhər arasındakı fərqi aradan qaldırmış, insanların rahatlığı təmin edilmişdir.

İqtisadi və sosial tərəqqinin təmin olunmasında mühüm rol oynayan nəqliyyat sektorunun inkişafı da diqqətdə saxlanılan məsələlərdən olmuşdur. Muxtar respublikada müasir avtomobil yolları çəkilmiş, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılmış, yüksək xidmət imkanlarına malik avtovağzallar tikilmiş, şəhərdaxili və kəndlərarası marşrutlarda müasir avtobusların istifadəyə verilməsi hesabına vətəndaşların nəqliyyat xidmətlərindən istifadəsi yaxşılaşdırılmışdır. Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda yeni avtobusların alınaraq xəttə buraxılması vətəndaşlara göstərilən xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Rayon mərkəzlərinə və bütün kəndlərə 500-dən çox taksi və 300-dən çox avtobusla rahat gediş-gəliş təmin edilmiş, xüsusilə sərhəd və ucqar dağ kəndlərinə sərnişin daşınmasının fasiləsizliyi diqqətdə saxlanılmışdır.

Əhalinin bir hissəsinin binalardakı mənzillərdə yaşadığı nəzərə alınaraq onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdən kənarda qalmamışdır. Sovet dövründə tikilmiş ictimai yaşayış binaları müasir görkəmdə yenidən qurulmuş, su, qaz, elektrik, telefon, istilik və kanalizasiya xətləri yenilənmiş, binaların həyətlərində avtomobillər üçün dayanacaqlar, yaşıllıqlar salınmış, uşaqların əylənməsinə, sakinlərin sağlamlığına

Ardı 2-ci səhifədə














xidmət edən əyləncə və idman qurğuları quraşdırılmışdır. Şəhər sakinləri ilə yanaşı, ətraf kəndlərdə yaşayan əhalinin təmiz və keyfiyyətli içməli su ilə fasiləsiz təmini istiqamətində tədbirlər həyata keçirilmiş və hazırda da bu işlər davam etdirilir. Gələcəyə hesablanaraq həyata keçirilən tədbirlər insanların məişətinə və yaşam tərzinə müsbət təsir göstərmiş, onların rahatlığını və firavanlığını təmin etmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində müasir informasiya



texnologiyalarının tətbiqi, o cümlədən internetə yüksəksürətli çıxışın təmin olunması, fasiləsiz elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, bank və poçt xidmətlərinin inkişaf etdirilməsi insanların rahat yaşayışının göstəricisi, dövlətin vətəndaşına qayğısının əyani ifadəsidir.

İnkişafın mühüm göstəricilərindən biri olan yüksəkkeyfiyyətli təhsil almaq imkanlarının genişləndirilməsi və sağlam həyat tərzinin təmin edilməsi məqsədilə səhiyyə xidmətlərinin inkişafının dəstəklənməsi məskunlaşmaya müsbət təsir gös-



tərmişdir. Muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində belə, müasir avadanlıqlarla təchiz edilmiş təhsil və səhiyyə obyektlərinin istifadəyə verilməsi əhalinin bütün təbəqələrinin keyfiyyətli təhsil və tibb xidmətləri ilə təmin olunmasına şərait yaratmışdır.

Bu gün muxtar respublikada təhsil infrastrukturu müasir tələblər səviyyəsində yenidən qurulmuş, maddi-texniki baza möhkəmləndirilmişdir. Ötən dövrdə təkcə kənd yerlərində 37 min 800 şagird yerlik 149 ümumtəhsil məktəbi tikilmişdir. Kənd yerlərində tikilərək istifadəyə verilən məktəblər muxtar respublika üzrə tikilərək istifadəyə verilmiş məktəblərin 86 faizini təşkil etmişdir. Bütün təhsil müəssisələri ən müasir informasiya avadanlıqları ilə, o cümlədən internetə çıxışı olan kompüterlərlə 100 faiz təmin edilmiş, təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilmiş, şagirdlərin müasir dövrün tələblərinə uyğun təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Yaradılan müasir tədris şəraitinin hesabınadır ki, II və III növbələrdə təhsilalanların



xüsusi çəkisinə görə muxtar respublika uzun illərdir, digər iqtisadi rayonlarla müqayisədə ilk sırada dayanmışdır. Həyata keçirilən bu və ya digər tədbirlər Naxçıvanı təhsilin inkişafında lider mövqeyə yüksəltmişdir. Bundan başqa, muxtar respublikada müasir tələblər səviyyəsində qurulmuş və keyfiyyət göstəricilərinə görə ölkə təhsilində ilk sıralarda yer alan ali təhsil müəssisələrinin mövcudluğu gənclərin digər bölgələrdə təhsil alması zərurətini aradan qaldırmış, əksinə, digər bölgələrdən və xarici ölkələrdən yüzlərlə gəncin Naxçıvana gələrək təhsil almasına şərait yaratmışdır.

Müasir səhiyyə infrastrukturu ilə yanaşı, bu sahənin kadr potensialının yaxşılaşdırılması, səhiyyə xidmətlərinin yalnız şəhər və rayon mərkəzlərində deyil, bütün yaşayış məntəqələrində əlçatan olması sakinlərin sosial rifahının yüksəlməsinə xidmət edən siyasətin tərkib hissəsi kimi tibbi xidmətin səviyyəsini xeyli yüksəltmiş, əhatəliliyini artırmışdır. Əhalinin sağlamlığının qorunması və həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılması muxtar respublikada yeni doğulanlarda gözlənilən ömür uzunluğunun artımı ilə nəticələnmişdir.

Sabitlik olmadan, insanların təhlükəsiz yaşayışı təmin edilmədən iqtisadi inkişafdan, o cümlədən məskunlaşmadan söhbət gedə bilməz. Qədim diyarda bu gün hərtərəfli tərəqqiyə şərait yaradan ictimai-siyasi sabitliyin qorunması, möhkəmləndirilməsi muxtar respublikanı cinayətsiz, təhlükəsiz bölgəyə çevirmişdir. Təsadüfi deyil ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı “Vanderlast” Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil etmişdir. ***“...Naxçıvanda qədim sivilizasiya və mədəniyyəti, müasir şəhərsalmanı, səliqə-sahmanı, dağ səyahətini, memarlıq abidələrini, dini, sağlamlıq turizmini, bir sözlə, bütün sahələri lokal bir yerdə görmək istəyənlər üçün çox maraqlı olacaq. Hər kəs özünü burada daha rahat və möcüzələr aləmindəki kimi hiss edəcək”***, – deyə jurnalda qeyd olunmuşdur.

Ötən dövrdə sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, miqrasiya prosesindəki müsbət dinamika demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, əhalinin dinamik artımını təmin etmişdir. Ötən dövrlə müqayisədə muxtar respublika əhalisinin sayı 125,2 min nəfər artaraq 1 yanvar 2022-ci il tarixə 463 min nəfərə çatmışdır.

### *Nəticə: insanların sosial rifahının yüksəldilməsi məskunlaşmanı artırıb və onun dayanıqlığını təmin edib*

Müstəqillik illərində iqtisadiyyatın inkişaf etdirilməsi yolu ilə vətəndaşların sosial rifahının yüksəldilməsinə xidmət edən siyasətin uğurlu nəticələri əhalinin məskunlaşmasını artırmışdır. Məskunlaşmanın əsas göstəricisi kimi 2019-cu ildə muxtar respublikada ümumi sahəsi 395 min 253 kvadratmetr olan yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu göstəriciyə görə Naxçıvan Muxtar Respublikası ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ilk sırada dayanmışdır. 2010-cu il və ondan sonrakı illərdə muxtar respublika üzrə tikilərək istifadəyə verilmiş yaşayış evlərinin ümumi sahəsi 4 milyon 350 min kvadratmetri ötmüşdür. 1990-cı illərin əvvəllərində infrastrukturun dağılması, yaşayışın çətinləşməsi və işsizlik ucbatından başqa yerlərə köçmək məcburiyyətində qalmış bəzi vətəndaşların müstəqillik illərində sosial-iqtisadi inkişafın yüksəldilməsi, əhali gəlirlərinin artması, insanların torpaq sahibinə çevrilməsi nəticəsində geri qayıtması məskunlaşmanın artmasında müsbət rol oynamışdır.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmişdir. 2019-cu ildə istifadəyə verilmiş yaşayış sahəsinin 379 min 157 kvadratmetri və ya 96 faizi vətəndaşların şəxsi vəsaiti hesabına tikilmişdir ki, bu da müstəqilliyin ilk illərindəki göstəricidən 22,6 dəfə çoxdur. Əhalinin şəxsi vəsaiti hesabına 2020-ci ildə 376 min 426, 2021-ci ildə isə 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir. Təkcə son iki il ərzində şəhər yaşayış məntəqələri istisna olmaqla, qəsəbə və kəndlərdə vətəndaşlar tərəfindən 900-dən çox müasir fərdi yaşayış evləri tikilmişdir.

Əhalinin məskunlaşmasının göstəricisi kimi il ərzində vətəndaşların şəxsi vəsaitləri hesabına tikilmiş yaşayış sahələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən gənc ailələrin mənzillə təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər də mühüm rol oynamışdır. Belə ki, son illər rayon mərkəzləri ilə yanaşı, təkcə Naxçıvan şəhərində ümumi mənzil sayı 1030-dan çox olan 27 yaşayış binası tikilib istifadəyə verilmiş, gənclərin güzəştli ipoteka kreditləri ilə mənzil sahibi olmalarına şərait yaradılmışdır. Muxtar respublikada əhalinin 31 faizini təşkil edən gənclərin hərtərəfli inkişafına və sosial təminatına göstərilən diqqət, onların mənzil şəraitinin yaxşılaşdırılması həyata keçirilən



dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə aparılan tədbirlər gənclər arasında ailənin və nikahın möhkəmləndirilməsinə də müsbət təsir etmişdir.

Naxçıvan Muxtar Respublikasında inkişafın nəticəsi olaraq ötən dövrlərdə yaşayış məntəqələri böyümüş, yeni yaşayış məhəllələri salınmış, kəndlər qəsəbələrə, qəsəbələr isə şəhərlərə çevrilmişdir. 1990-cı illərin sonlarında muxtar respublikanın inzibati ərazi quruluşunu 6 rayon, 4 şəhər və 3 qəsəbə ərazi vahidi təşkil edirdisə, hazırda 7 rayon,



6 şəhər və 9 qəsəbə ərazi vahidi formalaşmışdır. Yaşayış məntəqələrinin inkişafı muxtar respublikada məskunlaşmanın artmasını xarakterizə edən mühüm göstəricilərdəndir.

Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, Naxçıvan durmadan inkişaf edir. Bunun təməlində isə insana qayğı, əməyə yüksək qiymət, Vətənə məhəbbət, qurub-yaratmaq əzmi və böyük zəhmət dayanır. Qədim diyarın sosial-iqtisadi inkişafındakı müsbət dəyişikliklər o qədər genişmiqyaslı və əhatəli şəkildə baş verir ki, vətəndaş olaraq bunun nəticəsini təkcə statistik göstəricilərdə deyil, öz gündəlik həyatımızda da hiss edirik. Bu inkişafı, eyni zamanda



şəhər və rayon mərkəzlərinin, kəndlərin dəyişən simasında, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında görürük.

Naxçıvanın gələcək inkişafı daha da parlaq görünür. Çünki ölkə Prezidenti cənab İlham Əliyevin müəllifi olduğu Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra yüksək resurs potensialına malik Naxçıvan nəqliyyat qovşağına çevriləcəkdir. Nəticədə, Naxçıvanın iqtisadi gücü, o cümlədən ölkəmizin beynəlxalq logistika mərkəzi kimi rolu da artacaqdır.



*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: **“Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qursunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər”.** Ulu öndərin tövsiyələri və quruculuq xətti bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin **“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”** prinsipi əsasında uğurla davam etdirilir. Bu da Naxçıvan intibahının növbəti parlaq mərhələsinə yüksəlməsinə imkan verir.*

**Əliheydər QURBANLI**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının baş məsləhətçisi***

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet saytı yenilənib

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet saytının yenilənmiş versiyasının təqdimat tədbirində ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev çıxış edərək əvvəlcə muxtar respublikamızda ekologiya sahəsində həyata keçirilən tədbirlər, nazirliyin bu istiqamətdəki fəaliyyəti ilə bağlı geniş məlumat verib. Qeyd edilib ki, nazirliyin və tabeli idarələrin fəaliyyəti barədə muxtar respublikanın kütləvi informasiya vasitələrində geniş ictimaiyyətə vaxtaşırı məlumat verilir. Həmçinin nazirliyin internet saytında bəzi informasiyalar yerləşdirilir. Əvvəlki internet saytının imkanları çox məhdud idi və yeni versiyanın hazırlanması zərurəti yaranmışdı. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri tərəfindən hazırlanan yeni sayt istifadəçi rahatlığını təmin etmək üçün hər cür imkana sahibdir. Belə ki, istifadəçi istər



kompüteri, istər planşeti, istərsə də mobil telefonu ilə rahatlıqla saytın məlumatlarından istifadə edə bilər. Çünki sayt bu ekran ölçülərinə uyğunlaşdırılıb. İnternet saytının əsas səhifəsində nazirliyin fəaliyyət istiqamətləri, strukturu, tabeli qurumları, sosial şəbəkə hesabları, ünvanı və əlaqə vasitələri haqqında məlumatlar yerləşdirilib. Sayt həm funksionallıq, həm də məzmun cəhətdən əvvəlki versiya ilə müqayisədə daha da təkmilləşdirilib və yeni informasiyalarla zənginləşdirilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin *ekologiya.nakhchivan.az* domen adı ilə fəaliyyət göstərəcək yeni internet səhifəsinin müasir təhlükəsizlik sertifikatı ilə təmin olunması, Google axtarış sistemində qeydiyyatdan keçirilməsi məqsədilə mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər görülüb.

Nazirliyin əməkdaşı Saleh Həsənov rəsmi internet saytının yeni versiyasının təqdimatını edərək bildirib ki, saytda “Mətbuat” bölməsində “Xəbərlər” altbölməsinə keçid təmin olunub və burada muxtar respublikanın ictimai həyatında baş verən hadisələr öz əksini tapıb. Fotoqalereya və videoqalereya altbölmələrində muxtar respublika ekologiyasına aid şəkil və videolar, “Hesabat” altbölməsində isə nazirliyin kollegiya iclasları və aylıq hesabatları yerləşdirilib. “Maraqlı məlumatlar” bölməsindən muxtar respublikanın coğrafi xüsusiyyətlərinə, fauna və florasına aid məlumatlar əldə etmək olar, “Elektron xidmətlər” bölməsində isə “Ekologiya təqvimi”, “Ekologiya könüllüləri”, “Ekologiya ədəbiyyatı” bölmələrinə keçidlər təmin olunub. Həmçinin gündəlik hava haqqında məlumatları “Hava proqnozu” bölməsindən öyrənmək mümkündür.

Qeyd olunub ki, izləyicilər internet saytının “Qanunvericilik” bölməsindən ölkəmizdəki ekologiya sahəsindəki qanunvericiliklə bağlı yeniliklərlə tanış ola biləcəklər. “Faydalı linklər” bölməsindən isə bir sıra internet saytlarına keçidlər etmək mümkündür.

**Nail ƏSGƏROV**

2022-ci il
“Şuşa ili”dir

# Qələbəmizin böyük təntənəsi



Nə az, nə çox, düz 28 il Şuşasız qaldıq, bu gözəl yurd yerimizə qovuşacağımız günü həsrətlə gözlədik. Gün, bu gündür… Artıq Qarabağ torpağı doğmalarının gəlişini bayram edir. Təbii ki, Qarabağı düşməndən azad etmək bir o qədər də asan olmadı. Müzəffər Ordumuz yüngül silahlarla sıx meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni döyüşdə məhv etdi. Bizim olan özümüzə yenidən qaytarıldı. Şuşa qələbəsi Zəfər Günü kimi yaddaşlarımıza hakim kəsildi. Hər ilin son gününün son saatlarında cənab Prezidentin xalqa müraciəti zamanı Qarabağa qovuşacağımız günün ümidləri verilirdi. Bu il isə ölkə başçısının müraciəti fərqli hiss və duyğularla oldu. Prezident cənab İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili “Şuşa ili” elan etdiyini vurğuladı. Ardınca isə 2022-ci il yanvarın 5-də bu barədə Sərəncam imzaladı. Sərəncamda deyilir: ***“Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili “Şuşa ili” elan edirəm”.***

Adıçəkilən Sərəncamın imzalanmasında məqsəd Qarabağın tarixini bütün dünyaya çatdırmaq, Şuşanın 270 illik yubileyinin təntənəli şəkildə keçirilməsinə nail olmaq və ən əsası Şuşamızın tez bir zamanda bərpasını sürətləndirmək baxımından mühüm önəm daşıyır. Qarabağımızın gözü olan Şuşanın düşməndən azad olunduğu gün biz əmin idik ki, qədim yurd yerimiz abadlaşacaq, dirçəldiləcək, əvvəlki gözoxşayan rövnəqliyi özünə qaytarılacaq. Elə Şuşamızın azad olunduğu gün ölkə başçısının xalqımıza müraciətində dediyi kimi:

***“Əziz Şuşa, sən azadsan!***
***Əziz Şuşa, biz qayıtmışıq!***
***Əziz Şuşa, biz səni dirçəldəcəyik!***
***Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”***

Bəli, artıq Şuşa yenidən qurulur, özü də gözoxşayan, füsunkarlığı ilə dünyaya meydan oxuyacaq tikililəri ilə… Qısa zaman kəsiyində görkəmli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin, həmçinin Şuşadakı tarixi, dini və memarlıq abidələrinin bərpa olunması ölkəmizin mədəniyyət paytaxtında həyata vəsiqə alan kompleks quruculuq işlərinin tərkib hissəsidir. Qürur hissi ilə deyə bilirik ki, şəhərin tarixi siması əsaslı surətdə dəyişir. Mədəniyyət paytaxtında gözoxşayacaq binaların özülü qoyulur. Təbii ki, bütün bunlar “Şuşa” adlı qələbəmizin davamıdır. Prezidentimizin Şuşaya, eləcə də işğaldan azad olunmuş digər ərazilərə mütəmadi olaraq səfər etməsi isə həmin yurd yerlərimizin tarixinə silinməz anlar yazır.

Şuşamız düşmən əsarətindən azad edildiyi bir il müddətində bir çox tədbirlərə ev sahibliyi edib. Novruz bayramında “Novruz” tonqalı çatıldı Şuşada. Bu torpağın əsl sahibləri Cıdır düzündə rəqs etdilər. Onun ardınca Şanlı Zəfərimizin böyük sevincini “Xarıbülbül” festivalında yaşadıq. Konsertdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik”*** sözlərini əks etdirən videoçarxa baxdıqca sevinc göz yaşlarımıza hakim ola bilmədik. Sevinən təkcə biz deyildik. Səvinirdi Bülbülün, Üzeyirin, Natəvanın ruhu, sevinirdi Vaqifin nakam ruhu. O müqəddəs ruh ki 30 il məqbərəyə hər baxdığında dağıdıldığını, doğmalarını itirdiyini, bu torpaqda düşmənin gəzdiyini görürdü. Vaqif poeziya günlərinin keçirilməsi ilə yenidən canlandı Şuşam. Bütün bu tədbirlərin keçirilməsi bağrımıza çəkilən dağların məlhəmi oldu. O məlhəm ki düşmənin gözünə atılan şiş, boğazına tökülən zəhər oldu. Ötən ilin iyun ayında daha bir tarixi Qələbəyə uğurla imza atdıq. Azərbaycan Prezidentinin dəvəti ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın mədəniyyət mərkəzi elan edilmiş Şuşa şəhərinə səfəri baş tutdu. Burada iki ölkə arasında imzalanmış “Şuşa Bəyannaməsi” regionda sülh və sabitliyin bərpa edilməsi, ölkələrimizin ərazi bütövlüyünə təhdid və təhlükə yaranarsa, qarşılıqlı hərbi yardımları özündə əks etdirən çox vacib sənəd oldu. İki qardaş ölkənin dövlət başçılarının bu addımı atması düşmənə Qələbə mesajını ünvanladı.

Şuşa təkcə şuşalılar üçün yox, Vətənini sevən hər bir vətəndaş üçün əzizdir, doğmadır. Şuşanın 270 illik yubileyinin zəfər coşqusu ilə keçiriləcəyini gözləyirik. Bu silsilə tədbirlərdə isə Şuşa şəhər mədəniyyəti, tarixi, coğrafiyası, eləcə də bəşər mədəniyyətinə verdiyi töhfəsi ilə dünyaya səs salacaq, düşmənin gözünə ox olub sancılacaq. Şuşada aparılan yenidənqurma işlərindən sonra şəhər həm də turizm mərkəzlərindən birinə çevriləcək. 270 yaşlı yurd yerimizdə görəcəyimiz xoş günlər hələ qabaqdadır. Yuxarı və Aşağı Gövhər Ağa məscidlərinin minarələrindən eşidilən azan səsi hər tərəfə səs salacaq, şəhid qardaşlarımızın ruhu yenidən şad olacaq! O günləri doya-doya yaşayıb, canlı şahidlərinə çevrilmək ümidi ilə...

**Nuray ƏSGƏROVA**

# “Qış məktəbi” başa çatıb



Ağbulaq İstirahət Mərkəzində Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, YAP Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi və Həmkarlar İttifaqları Şurası tərəfindən “Qış məktəbi” layihəsinə uyğun olaraq sayca ikinci düşərgə təşkil olunub.

Gənclər və idman naziri Ramil Hacı, Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımovun iştirakı ilə layihə çərçivəsində gənclərlə növbəti görüş keçirilib. Səmimi söhbət zamanı iştirakçıların fikir və təklifləri dinlənilib, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Düşərgə müddətində “Numizmatika elmi” mövzusunda seminar, həmin mövzuda intellektual yarışma, “Kənd turizminin təbliği” adlı müsabiqə, bədii yaradıcılıq gecəsi, “Nə? Harada? Nə zaman?” intellektual oyunu, tanışlıq və diskussiya xarakterli görüş keçirilib, iştirakçılar tərəfindən yumoristik səhnəciklər nümayiş edilib. “Qış məktəbi”ndə fərqlənən komandalar sertifikatla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Görkəmli şair, ədəbiyyatşünas, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, ictimai xadim Xanəli Kərimlinin AMEA Naxçıvan Bölməsinə hədiyyə etdiyi kitabların təqdimatı keçirilib.*

# Hədiyyə olunan kitabların təqdimatı keçirilib



Tədbiri açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Xanəli Kərimlinin həyat və yaradıcılığı haqqında geniş məlumat verib, onun şair, tədqiqatçı və müəllim kimi fəaliyyətini xarakterizə edib, mənəvi keyfiyyətlərindən söz açıb, şairin poeziyasının aparıcı mövzuları, yüksək təsvir xüsusiyyətləri, şeirlərinin tərbiyəvi əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüb.

Akademik AMEA Naxçıvan Bölməsinə təqdim olunan kitablardan söz açaraq bildirib ki, hədiyyə olunan kitablar şairin öz əsərləri ilə yanaşı, (“Payız duyğuları”, “Tanrı müjdəsi”, “Mir v moix ladonyax”), alim və tədqiqatçıların onun yaradıcılığı ilə bağlı müxtəlif vaxtlarda qələmə aldıqları əsərlər, 55, 60, 65, 70 illik yubileyləri münasibətilə nəşr olunmuş toplulardan ibarətdir.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov “Xanəli Kərimlinin həyatı və yaradıcılıq yolu” mövzusunda məruzə edib. Bildirilib ki, Naxçıvan ədəbi mühitinin istedadlı yetirməsi Xanəli Kərimli Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil aldıqdan sonra elmi fəaliyyətini davam etdirərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Şair 1991-ci ildən Naxçıvan Dövlət Universitetində başlayan elmi-ictimai, pedaqoji fəaliyyəti haqqında geniş məlumat verib. Qeyd olunub ki, şair-publisist Xanəli Kərimli həm də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur. Pedaqoji sahədəki səmərəli fəaliyyətinə görə 2007-ci ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülmüş alim yüzdən çox elmi, publisist və metodik məqalələr müəllifidir.

İnstitutun Ədəbiyyatşünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Orucova “Xanəli Kərimli yaradıcılığına ədəbi-tənqidi baxış” mövzusundakı çıxışında vətənpərvər şairin yaradıcılığı haqqında “Şairə məktub”, “Xanəli Kərimli: sözün Əlincə qalası”, “Xanəli Kərimli: bir ömrün işığı”, “Şairin könül dünyası” adlı məqalələr topluları əsasında Azərbaycan ədəbi tənqidinin aparıcı nümayəndələrinin qələmə aldıqları məqalələrdən bəhs edib.

AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanasının direktoru Sahab Əliyeva çıxışında tanınmış alim və şairin həyat və yaradıcılığının bütün dövrlərində Azərbaycanın bütövlüyünə, böyük Azərbaycan idealına sədaqətlə xidmət etdiyini vurğulayıb.

Sonda Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimli çıxış edərək mütaliənin əhəmiyyətindən, kitab bağışlamağın mühüm önəmindən söz açıb. Hədiyyə olunan kitabların gələcək nəsillər tərəfindən də oxunacağına əminliyin bəxş etdiyi sevinci tədbir iştirakçıları ilə bölüşüb.

# Naxçıvan məktəbliləri beynəlxalq müsabiqənin diplomuna layiq görülüb




Muxtar respublikada elm və təhsilin vəhdəti istiqamətində yerinə yetirilən layihələrdən biri də “Sabahın tədqiqatçıları” layihəsidir. Layihənin əsas məqsədi elmi yaradıcılığa marağı olan şagirdlərin yenilikçi təhsil proqramlarını mənimsəməklə elmi dünyagörüşlərinin artırılmasına, gələcək peşə istiqamətlərini düzgün seçmələrinə və innovativ yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək etməkdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsi tərəfindən 2019-cu ildən başlayaraq reallaşdırılan layihə 2021-2022-ci tədris ilində də bir sıra uğurlara imza atıb.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın rəhbərliyi ilə hazırda 4 məktəbli iki layihə üzrə araşdırmalara davam edir. Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdi Nuray Məmmədova, 3 nömrəli tam orta məktəbin X sinif şagirdi Fərid Cabbarov, 14 nömrəli tam orta məktəbin X sinif şagirdi Ramiz Səfərli və 7 nömrəli tam orta məktəbin X sinif şagirdi Türkan Zülfüqarlının “Naxçıvan Muxtar Respublikasının təbii su mənbələri” adlı məqaləsi Rusiya Təbiətşünaslıq Akademiyasının nəşri olan “Mejdunarodnıy şkolnıy nauçnıy vestnik” (Beynəlxalq məktəb elmi xəbərləri) jurnalında dərc olunub, jurnalın rəsmi internet səhifəsində yerləşdirilib. Məqalə müəllifləri və elmi rəhbər Fizzə Məmmədova sertifikat və diploma layiq görülüblər.




Məktəblilər, həmçinin ötən ilin dekabr ayında “İstedadların xəzinəsi” Beynəlxalq Təhsil Mərkəzinin keçirdiyi “Elm və texnologiya” ilinə həsr olunmuş Elmi-praktik və tədqiqat işləri və layihələri beynəlxalq müsabiqəsində “Naxçıvan Muxtar Respublikasının mineral su ehtiyatları” adlı layihə ilə iştirak ediblər. 167 min 889 layihənin qatıldığı müsabiqənin nəticələrinə əsasən Naxçıvan məktəblilərinin layihəsi müsabiqənin münsiflər heyəti tərəfindən I yerə layiq görülərək I dərəcəli diplomla mükafatlandırılıblar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə “Qlobal Pul Həftəsi”nə həsr olunmuş “Maliyyə savadlılığı: Strategiya, tədris, təhlil” və “Uşaqlar və pullar” müsabiqələri üzrə tədbir keçirib.*

# “Qlobal Pul Həftəsi”nə həsr olunmuş tədbir



Tədbiri giriş sözü ilə Naxçıvan Gənc Müəllimlər Assosiasiyası İctimai Birliyinin sədri Gülxanım Orucova açaraq Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq istehlakçıların maliyyə savadlılığının artırılmasına və bu yolla onların hüquqlarının qorunmasına yönəlmiş müxtəlifsəpkili tədbirlər həyata keçirildiyini və bu tədbirlərdə əsas hədəf qruplarından biri kimi məktəbli, tələbə və müəllim heyətinin seçildiyini vurğulayıb.

İdarənin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Qənbər Xudiyev “Qlobal Pul Həftəsi” çərçivəsində müxtəlif maarifləndirici tədbirlərin keçirilməsində əsas məqsədin muxtar respublikada gənc şagird, tələbə və müəllim heyətinin iqtisadi və maliyyə məsələləri üzrə məlumatlılığının və rasional maliyyə davranışlarının artırılmasından ibarət olduğunu qeyd edib.

Tədbir zamanı şöbənin əməkdaşı Pərviz Babayev tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının iqtisadi maarifləndirmə məqsədilə yaratdığı virtual təhsil platformasında təqdim edilmiş müvafiq kurslar barədə məlumat verib. Bildirilib ki, pedaqoji heyət üçün “Maliyyə savadlılığı: Strategiya, tədris, təhlil” və ümumtəhsil məktəblərində maliyyə savadlılığının ictimai dəyər kimi tanınması, şagirdlərin maliyyə savadlılığı səviyyəsinin artırılması məqsədilə 10-16 yaşlı şagirdlər üçün “Uşaqlar və pullar” virtual kursu nəzərdə tutulub. Kursların təbliği və təşviqi üçün hədəf qruplar arasında 11 mart 2022-ci il tarixədək müsabiqə elan edilib. İştirakçılar qeyd olunan kursun videodərslərini dinlədikdən sonra testdə onlayn şəkildə iştirak edərək Mərkəzi Bankın əməkdaşının nəzarəti altında suallara cavablandıracaqlar. Müsabiqənin nəticələrinə uyğun olaraq qalib şəxslərə müxtəlif hədiyyələr təqdim ediləcəkdir.

**Xəbərlər şöbəsi**

***Dünya miqyasında bədən tərbiyəsi və idmanın rolu davamlı şəkildə artmaqdadır. İdmanın bütün tarixi dövrlərdə öz aktuallığını qorumasının başlıca səbəbi bu sahənin insanın fiziki və mənəvi inkişafını təmin etməyin ən təsirli vasitələrindən biri olmasıdır. İdmanın inkişafı yeniyetmə və gənclərin sağlam ruhda böyüməsi, cəmiyyətin gələcək inkişafının möhkəm təməllər üzərində dayanması deməkdir.***

Dövlət proqramı icra olunur

# İdmanın inkişafı tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində mühüm addımlar atılır. Bunun nəticəsidir ki, Naxçıvan idmançılarının ölkə və beynəlxalq səviyyəli yarışlarda fəal iştirakı təmin olunur və qazanılan nailiyyətlərin sayı ildən-ilə artır. Bu, muxtar respublikada idmançıların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması və müasir idman infrastrukturunun yaradılmasının məntiqi nəticəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın məqsədlərindən biri Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsidir. Bu baxımdan 2021-ci il nailiyyətlərlə yadda qalmışdır.

Ötən il aprel ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Uzunoba Təlim-Məşq İdman Kompleksi istifadəyə verilmişdir. Ümumi sahəsi 10 min 300 kvadratmetr olan kompleksin ərazisinə inzibati bina, süni örtüklü böyük futbol stadionu, üstüörtülü və çəpərlənmiş minifutbol meydançaları, ikitribunalı çimərlik futbolu stadionu daxildir. Sentyabr ayında kompleksdə Avropa Futbol Assosiasiyaları İttifaqına (UEFA) üzv olan dövlətlərdə uşaq futbolu ilə bağlı tətbiq olunan "Grassroots" proqramına əsasən 100-dək məktəblinin iştirakı ilə əyləncəli futbol festivalı keçirilmişdir. Ölkə səviyyəsində Naxçıvandan start götürən layihənin məqsədi sağlam həyat tərzinin təbliği, futbolun kütləviliyini artırmaq, uşaqların və yeniyetmələrin asudə vaxtlarını səmərəli təşkil etmək və onlarda futbola maraq oyatmaq olmuşdur.



Naxçıvanda idman infrastrukturunun modernləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikanın rayonlarını da əhatə etməkdədir. Dövlət proqramının icrasına uyğun olaraq ötən il Ordubad şəhər stadionunun yenidən qurulması ilə bağlı görülən işlər başa çatdırılmışdır. Ali Məclisin Sədri sentyabrın 15-də stadionda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur. Stadionun ümumi sahəsi 8 min 980 kvadratmetrdir. Ərazidə ikimərtəbəli yardımçı bina və 400 nəfərlik tamaşaçı tutumuna malik 2 tribuna inşa edilmiş, sadə idman qurğuları quraşdırılmış, 30 yerlik avtomobil dayanacağı yaradılmışdır.

Muxtar respublikada turizmin sürətli inkişafı, dağ xizəkçilərinin istirahətinin təşkili və bunun üçün tələb olunan komfort şəraitinin yaradılması qış turizmi sənayesinin formalaşmasına gətirib çıxarmışdır. Ötən il Şahbuz rayonunda Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi Naxçıvanda idmanın inkişafına göstərilən diqqətin digər mühüm təzahürüdür. Mərkəzin fəaliyyətə başlaması qış idman növlərinə marağın artmasına imkan verir. Mərkəzdə gənclər üçün xizəksürmə təlimi təşkil olunmuş, Ağbulaq Xizəksürmə İdman Klubu yaradılmışdır. Həmçinin ötən il Kəngərli rayonunda süni örtüklü minifutbol meydançası istifadəyə verilmişdir.





Muxtar respublikada idmançıların əməyinə verilən qiymətin yüksək səviyyədə olması bu sahədə yeni uğurlar qazanmaq üçün stimullaşdırıcı xarakter daşıyır. İdmanın müxtəlif sahələri üzrə fəaliyyət göstərən yeniyetmə və gənclərin ardıcıl olaraq mükafatlandırılması onları daha da həvəsləndirir, bədən tərbiyəsi və idmana olan marağı artırır. Belə idman növlərindən biri də Naxçıvanda özünün yeni inkişaf dövrünü yaşayan şahmatdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Nazlı Hümbətova Ali Məclis Sədrinin şahmat üzrə xüsusi aylıq təqaüdünə layiq görülmüş və onun adı Gənc İstedadların "Qızıl kitabı"na yazılmışdır.

Bütün bunlarla yanaşı, Naxçıvan şəhərində mayın 3-dən 18-dək kişilər, 20-dən 31-dək qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı təşkil olunmuşdur. Hər iki turnir 12 şahmatçının iştirakı ilə dairəvi sistem üzrə keçirilmiş, sonda qaliblər mükafatlandırılmışdır. İl ərzində Naxçıvan şahmatçılarının ölkə və beynəlxalq çempionatlarda iştirakı təmin edilmişdir.

Ümumilikdə, ötən il idmanın müxtəlif növləri üzrə Naxçıvan idmançıları ölkə və beynəlxalq səviyyəli yarışlarda 27 qızıl, 32 gümüş və 23 bürünc medal qazanmış, muxtar respublikada 602 idman tədbiri keçirilmişdir.

İdman insanın fiziki sağlamlığını təmin etdiyi üçün keyfiyyətli həyat tərzinin əsas şərtlərindəndir. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə, cəmiyyət üçün faydalıdır".*** Həm də idman ona görə faydalı fəaliyyət növüdür ki, bu vasitə ilə yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaq durması təmin olunur. Bu istiqamətdə tədbirlər 2021-ci ildə də davam etdirilmiş, Dövlət proqramının icrası məqsədilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında 9 idman növü üzrə birinciliklər keçirilmişdir. Bədən tərbiyəsi və idman asudə vaxtın səmərəli təşkil forması kimi gənc nəslin mənəvi inkişafını müsbət istiqamətlərə yönəltmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada idman sahəsi hər zaman diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür... Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam gənc nəsil yetişir. Gənclər zərərli vərdişlərdən uzaqdır. İdman sahəsində uğurlar qazanılır".***

Naxçıvan Muxtar Respublikasında idmana təhsil müəssisələri səviyyəsində xüsusi diqqət yetirilməsi peşəkar idmançıların yetişdirilməsi üçün əsas rol oynayır. Yaradılan şərait uşaqlar üçün erkən yaşlardan etibarən idmanı cəlbedici edir və sağlam nəslin formalaşmasına səbəb olur. Ötən il muxtar respublikada, ümumilikdə, 12 təhsil müəssisəsində 17 yeni idman klubu yaradılmışdır. Bu klublar 8 tennis stolu, eyni sayda tennis toru, raketka və şar, 6 basketbol, 4 voleybol, 2 gimnastika topu, 17 tatami, 30 gimnastika döşəyi, 3 universal güc, 3 ağırlıqqaldırma trenajoru, velosiped, xizək və digər avadanlıqlarla təmin edilmişdir.

Ümumtəhsil məktəblərində fiziki tərbiyə ixtisası üzrə 9 vakant yer müəyyənləşdirilərək müsabiqəyə çıxarılmış, 6 müəllim işlə təmin olunmuşdur. Eyni zamanda Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində bədii gimnastika kursu təşkil olunmuş, kursu başa vuran 12 müəllimə sertifikatlar verilmişdir.

İdman sahəsinə peşəkar yanaşmanın təmin olunmasında kadr hazırlığı mühüm əhəmiyyət kəsb edir. İdman məşqçilərinin praktik və nəzəri biliklərinin artırılmasına təcrübəli mütəxəssislərin cəlbi görülən işin effektivliyini artırır. Naxçıvanda ötən ilin fevral-aprel aylarında futbol məşqçiləri üçün Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının müvafiq ixtisaslı əməkdaşları tərəfindən "C" kateqoriyalı məşqçilik kursları keçirilmişdir. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun qapıçı-məşqçisi Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) qapıçılar üzrə "B" kateqoriyalı məşqçi kursunu tamamlamışdır. Futbol üzrə Naxçıvan Region Liqasında fəaliyyət göstərən hakimlərin nəzəri biliklərinin artırılması üçün Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının hakimlər komitəsinin 2 əməkdaşı muxtar respublikaya dəvət olunmuşdur. Həmçinin basketbol üzrə Naxçıvan Dövlət Universitetində təşkil edilən hakimlik kursuna respublika dərəcəli hakim dəvət edilmiş, 15 tələbə 2 həftə ərzində kurs keçmişdir.

Dövlət proqramının əsas icra istiqamətlərindən biri idmanın kütləviliyinin təmin olunmasıdır. Bu istiqamətdə təbliğat xarakterli tədbirlər ötən il də davam etdirilmiş, sosial şəbəkə aksiyaları vasitəsilə idmanın üstünlükləri tanıdılmışdır. Müxtəlif idman növləri üzrə məlumat xarakterli posterlər hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır. "Araz-Naxçıvan" Futbol Məktəbinin yaranması ilə bağlı gənclər arasında 1000 təşviq bukleti paylanmışdır. İdmanın təbliği ilə bağlı Naxçıvan televiziyasında 188, "Şərq qapısı" qəzetində 95 material hazırlanmışdır.

Muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq müvəffəqiyyətlə həyata keçirilir. Bu siyasət daim öz bəhrəsini verir, idmançılarımız ən mötəbər yarışlarda uğurlu çıxışları ilə bayrağımızı yüksəklərə qaldırırlar. Yaradılan şərait, müasir idman infrastrukturlarının qurulması, Dövlət proqramının uğurla icrası və muxtar respublika rəhbərinin diqqət və qayğısı idmançılarımızı yeni-yeni qələbələrə ruhlandırır.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 4 mart 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiyməti 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 106013000655-06302 reyestr nömrəli, 6800 kvadratmetr torpaq sahəsində yerləşən, ümumi sahəsi 1353.04 kvadratmetr olan qeyri-yaşayış binası | Culfa rayonu, Kırna kəndi | 75.415 | 3770.75 |
| 2. | 106013000655-06301 reyestr nömrəli, 6800 kvadratmetr torpaq sahəsində yerləşən, ümumi sahəsi 1447.75 kvadratmetr olan qeyri-yaşayış binası | Culfa rayonu, Kırna kəndi | 95.415 | 4770.75 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 1 mart 2022-ci il tarixədək ödənilməlidir.

Hərracda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 4 mart 2022-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: (036) 545-01-38***

## Yarımfinalın ilk oyunları keçirilib



Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında yarımfinal mərhələsinin ilk oyunları keçirilib.

Püşkə əsasən bu turda beynəlxalq usta Məhəmməd Muradlı (2528) qrossmeyster Vasif Durarbəyli (2615) və qrossmeyster Aydın Süleymanlı (2530) ilə qrossmeyster Misrətdin İsgəndərov (2566) cütlükləri üz-üzə gəlib. Həlledici qarşılaşmadan öncə Vasif və Misrətdin ilk qələbələrini qazanıblar.

Yarımfinalda keçiriləcək ikinci görüşlər bu gün oynanılacaq.

Qeyd edək ki, iki klassik oyundan sonra qalib müəyyən edilməzsə, rəqiblər nəzarət vaxtı – oyunun sonuna qədər 15 dəqiqə və hər gedişə 10 saniyə əlavə olunmaqla, iki oyun və əgər yenə də hesabda bərabərlik olarsa, 5'+3" nəzarət vaxtı ilə daha iki oyunda qalibi müəyyən etməyə çalışacaqlar. Sonda bərabərlik halında "Armageddon"da, ağlara 5 dəqiqə, qaralara isə 4 dəqiqə nəzarət vaxtı ilə qalibi müəyyən edəcəklər; heç-heçə qaraların qələbəsi kimi qəbul olunur.

Yarımfinalın qalibləri finalda birinci yer, məğlub şahmatçılar 3-cü yer uğrunda mübarizə aparacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur şəhəri, kapitan Seyidov küçəsi, bina 12, mənzil 43-də yaşayan Quliyev Elgün Məhəmməd oğlunun adına olan fərdi yaşayış evinin 102011000068-05101-093009 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 148